Qabul qilindi: 02.02.2026 Chop etildi: 30.04.2026 UDK: 82.091:821.512.133

# TEYMURİLƏR DÖVRÜ RENESSANSI – ƏLİŞİR NƏVAİNİN "VƏQFİYYƏ" ƏSƏRİ SOSİAL-İQTİSADİ MANİFESTİ KİMİ

*Almaz Ülvi BİNNƏTOVA, Filologiya elmləri doktoru Özbəkistan Respublikasının "Dostluq" ordeni mükafatçısı,AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun "Azərbaycan-Türkmənistan-Özbəkistan ədəbi əlaqələr" şöbəsinin müdiri*



*https://orcid.org/ 0000-0001-7991-3969*
*e-mail: almazulvi1960@mail.ru*

# TEMURIYLAR DAVRI RENESSANSI – ALISHER NAVOIYNING "VAQFIYA" ASARI IJTIMOIY-IQTISODIY MANIFEST SIFATIDA

*Almaz Ulvi BINNATOVA, filologiya fanlari doktori, O'zbekiston Respublikasining "Do'stlik" ordeni sohibasi, Ozarbayjon Milliy Fanlar Akademiyasi Nizomiy Ganjaviy nomidagi Adabiyot instituti "Ozarbayjon–Turkmaniston–O'zbekiston adabiy aloqalari" bo'limi mudiri*

# THE RENAISSANCE OF THE TIMURID ERA: ALISHER NAVOI'S "WAQFIYYA" AS A SOCIO-ECONOMIC MANIFESTO

*Almaz Ulvi BINNATOVA, Doctor of Philological Sciences, recipient of the "Friendship" Order of the Republic of Uzbekistan, Head of the Department of Azerbaijan–Turkmenistan–Uzbekistan Literary Relations at the Nizami Ganjavi Institute of Literature, Azerbaijan National Academy of Sciences*

# РЕНЕССАНС ЭПОХИ ТИМУРИДОВ — ПРОИЗВЕДЕНИЕ АЛИШЕРА НАВОИ "ВАКФИЯ" КАК СОЦИАЛЬНО-ЭКОНОМИЧЕСКИЙ МАНИФЕСТ

*Алмаз Ульви БИННАТОВА, доктор филологических наук, кавалер ордена "Дружба" Республики Узбекистан, заведующая отделом "Азербайджано–Туркмено–Узбекские литературные связи" Института литературы имени Низами Гянджеви Национальной академии наук Азербайджана*

























TAMADDUN NURI

***Xülasə:*** *Bu məqalədə Əlişir Nəvainin "Vəqfiyyə" əsəri Teymurilər dövrü İntibahının sosial-iqtisadi və mənəvi mahiyyətini əks etdirən mühüm mənbə kimi təhlil olunur. Göstərilir ki, Nəvai yalnız böyük şair və mütəfəkkir deyil, həm də genişmiqyaslı ictimai layihələr həyata keçirən dövlət xadimi və xeyriyyəçi olmuşdur. Onun Heratda yaratdığı "İxlasiyyə" kompleksi – mədrəsə, xəstəxana, xanəgah və kitabxanadan ibarət vahid sistem – İntibah dövrünün inkişaf modelini nümayiş etdirir. "Vəqfiyyə" əsəri hüquqi sənəd olmaqla yanaşı, bədii nəsr elementləri ilə zənginləşdirilmiş, müəllifin dünyagörüşünü və humanist ideyalarını əks etdirən unikal mətn kimi dəyərləndirilir. Əsərdə vəqf anlayışı yalnız maddi yardım vasitəsi kimi deyil, sosial rifahın təmininə yönəlmiş kompleks mexanizm kimi təqdim edilir. Nəvai vəqf vasitəsilə təhsil, səhiyyə və sosial təminat sahələrini birləşdirərək davamlı inkişaf modeli formalaşdırmışdır.*

*Məqalədə həmçinin "Vəqfiyyə"nin dil və üslub xüsusiyyətləri, xüsusilə türk (cığatay) dilində yazılması və terminoloji yenilikləri elmi baxımdan təhlil edilir. Bu, türk dilinin elmi və inzibati sahədə mövqeyinin möhkəmlənməsində mühüm rol oynamışdır.*

*Nəticə etibarilə, "Vəqfiyyə" Teymurilər dövrünün ictimai-mədəni həyatını əks etdirən sənəd olmaqla yanaşı, praktik humanizmin və sosial məsuliyyət ideyasının parlaq nümunəsi kimi çıxış edir. Əsər müasir dövrdə də sosial siyasət, xeyriyyəçilik və ictimai idarəetmə sahələrində aktual əhəmiyyətini qoruyur.*

***Açar sözlər:*** *Əlişir Nəvai, Vəqfiyyə, Teymurilər, İntibah, xeyriyyəçilik, sosial model, türk dili.*

***Annotatsiya:*** *Ushbu maqolada Alisher Navoiy qalamiga mansub "Vaqfiya" asari Temuriylar davri renessansining ijtimoiy-iqtisodiy va ma'naviy mohiyatini aks ettiruvchi muhim manba sifatida tahlil qilinadi. Navoiy nafaqat buyuk shoir va mutafakkir, balki yirik davlat arbobi va saxovatpesha inson sifatida ham e'tirof etiladi. Uning Hirotda barpo etgan "Ixlosiya" majmuasi – madrasa, shifoxona, xonaqoh va kutubxonadan iborat tizim – davr taraqqiyotining mukammal modelidir.*

*"Vaqfiya" asari huquqiy hujjat bo'lish bilan birga badiiy nasr unsurlari bilan boyitilgan noyob matn sifatida baholanadi. Asarda "vaqf" tushunchasi jamiyat farovonligini ta'minlovchi ko'p funksiyali tizim sifatida talqin etiladi. Navoiy ta'lim, sog'liqni saqlash va ijtimoiy yordamni yagona tizimga birlashtirib, barqaror rivojlanish modelini yaratgan. Asarning til va uslub xususiyatlari, ayniqsa uning turkiy (chig'atoy) tilida yozilgani ilmiy jihatdan muhim ahamiyatga ega. Bu holat turkiy tilning ilmiy va ma'muriy sohalarda keng qo'llanishiga xizmat qilgan.*

*Xulosa qilib aytganda, "Vaqfiya" nafaqat tarixiy hujjat, balki ijtimoiy-iqtisodiy manifest sifatida ham muhimdir. Asar bugungi kunda ham o'z dolzarbligini saqlab qolmoqda.*

***Kalit so'zlar:*** *Alisher Navoiy, Vaqfiya, Temuriylar, renessans, xayriya, ijtimoiy model, turkiy til.*

***Abstract:*** *This article examines Alisher Navoi's "Vaqfiya" as a significant source reflecting the socio-economic and spiritual foundations of the Timurid Renaissance. Navoi is presented not only as a prominent poet and thinker but also as a statesman and philanthropist who implemented large-scale public projects. The "Ikhlasiya" complex he established in Herat, consisting of a madrasa, hospital, khanqah, and library, represents an integrated model of social development.*

*"Vaqfiya" is evaluated as more than a legal document; it is a literary text enriched with artistic prose elements that convey the author's worldview and humanistic ideals. The concept of waqf is interpreted as a comprehensive mechanism for ensuring public welfare, combining education, healthcare, and social support within a unified system. The study also highlights the linguistic and stylistic features of the work, particularly its composition in the Turkic (Chagatai) language, which contributed to the expansion of its scientific and administrative functions.*

*In conclusion, "Vaqfiya" stands as both a historical document and a socio-economic manifesto embodying principles of practical humanism. Its relevance persists in the modern era, offering insights into sustainable social development and public responsibility.*

***Keywords:*** *Alisher Navoi, Vaqfiya, Timurids, Renaissance, philanthropy, social model, Turkic language.*

***Аннотация:*** *В статье анализируется произведение Алишера Навои "Вакфия" как важный источник, отражающий социально-экономическую и духовную сущность Ренессанса эпохи Тимуридов. Подчеркивается, что Навои был не только выдающимся поэтом и мыслителем, но и государственным деятелем, реализовавшим масштабные благотворительные проекты.*

TAMADDUN NURI

*Созданный им комплекс "Ихласия" в Герате, включающий медресе, больницу, ханаку и библиотеку, представляет собой целостную модель общественного развития.*

*"Вакфия" рассматривается не только как юридический документ, но и как художест-венно оформленный текст, отражающий мировоззрение автора и его гуманистические идеи. В произведении институт вакфа представлен как многофункциональный механизм обеспе-чения общественного благосостояния, объединяющий образование, здравоохранение и социальную поддержку. Особое внимание уделяется языковым и стилистическим особен-ностям произведения, написанного на тюркском (чагатайском) языке. Это способствовало расширению функций тюркского языка в научно-административной сфере.*

*Таким образом, «Вакфия» выступает не только историческим документом, но и своеобразным социально-экономическим манифестом, отражающим идеи практического гуманизма. Произведение сохраняет актуальность и в современном контексте, предлагая модель устойчивого общественного развития.*

***Ключевые слова:*** *Алишер Навои, Вакфия, Тимуриды, Ренессанс, социальная модель, благотворительность, тюркский язык.*

## GİRİŞ:

Teymurilər dövrü Şərq tarixində elmin, mədəniyyətin və ədəbiyyatın yüksək inkişaf mərhələsi kimi səciyyələndirilir və bir çox tədqiqatçılar tərəfindən "Şərq İntibahı" kimi qiymətləndirilir. Bu dövrün ən görkəmli nümayəndələrindən biri olan Əlişir Nəvai yalnız böyük şair və mütəfəkkir kimi deyil, həm də dövlət xadimi, xeyriyyəçi və ictimai fikir adamı kimi geniş fəaliyyət göstərmişdir. Onun çoxşaxəli fəaliyyəti Teymurilər dövlətində sosial, mədəni və iqtisadi həyatın inkişafına mühüm təsir göstərmişdir. İlk olaraq, onun Türk dilinin himayədarı kimi təqdim etsək, "Mühakimətul-lüğəteyn" əsəri ilə türk dilinin bədii və elmi potensialını – zənginliyini sübut edərək, onu dövrün elmi dili olan fars dili ilə eyni səviyyəyə qaldırmışdır. Bu, mədəni müstəqilliyin ən böyük addımı idi.

Türkcə – cığatay türkcəsində ilk dəfə "Xəmsə" yazan Nəvai yalnız şair deyil, həm də dövlət xadimi kimi onlarla mədrəsə, kitabxana, körpü və xəstəxana tikdirmişdir. Bu, Teymurilər dövründə elmin və infrastrukturun inkişafına birbaşa töhfə idi. "Xəmsə" və digər əsərlərində Teymurilər dövrünün siyasi və mənəvi baxışlarını, ədalətli hökmdar ideallarını özündə əks etdirir. Nəvainin "Vəqfiyyə"də qurduğu sistemin, əslində onun "Heyrətul-əbrar"da təsvir etdiyi ədalətli cəmiyyətin real həyatdakı tətbiqi (praktikası) kimi göstərilməsidir.

## ƏSAS HİSSƏ:

Əlişir Nəvainin "Vəqfiyyə" (1481–1482) əsəri Teymurilər dövrü İntibahının sosial, iqtisadi və mənəvi mənzərəsini əks etdirən ən önəmli sənədlərdən biridir. Bu əsər, bir tərəfdən klassik vəqf sənədi kimi hüquqi xarakter daşısa da, digər tərəfdən müəllifin ictimai baxışlarını, mənəvi dəyərlər sistemini və humanist ideyalarını əks etdirən mühüm tarixi və ədəbi mənbədir. "Vəqfiyyə" vasitəsilə Nəvai öz dövrünün sosial-iqtisadi münasibətlərini, ictimai institutlarını və xeyriyyəçilik ənənələrini sistemli şəkildə təqdim etmişdir. Məqalənin əsas məqsədi "Vəqfiyyə" əsərini Teymurilər dövrü İntibahının sosial-iqtisadi və mənəvi mahiyyətini əks etdirən kompleks mənbə kimi təhlil etməkdir. Bu məqsədə nail olmaq üçün əsərin janr xüsusiyyətləri, dil və üslub özəllikləri, vəqf institutunun təqdim forması, həmçinin Nəvainin həyata keçirdiyi xeyriyyəçilik fəaliyyətinin sosial əhəmiyyəti araşdırılır.

Tədqiqat zamanı tarixi-müqayisəli, mətnşünaslıq və sistemli təhlil metodlarından istifadə edilmişdir. Bu yanaşma "Vəqfiyyə"nin yalnız hüquqi sənəd kimi deyil, həm də sosial-iqtisadi model, bədii nəsr nümunəsi və humanist ideyaların praktik ifadəsi kimi dəyərləndirilməsinə imkan yaradır.

Nəvai əsərin giriş hissəsində dövrün mürəkkəb siyasi vəziyyəti, Sultan Hüseyn Bayqaranın hakimiyyəti və dövlət idarəçiliyi haqqında öz fəlsəfi düşüncələrini bölüşür. "Vəqfiyyə" sənədli janrla bədii üslubun sintezidir. Əsərdə müəllifin dünyagörüşü, dəyərlər sistemi və insan-dövlət münasibətlərinə dair fikirləri əks olunmuşdur. Bu əsər sadəcə bir hüquqi sənəd deyil, həm də Nəvainin dövlət xadimi və xeyriyyəçi kimi fəaliyyətini sübut edən tarixi bir mənbədir.

Nəvainin ən böyük xeyriyyə layihəsi Heratın şimalındakı İncil kanalının sahilində ucaltdığı “İxlasiyyə” kompleksi – Elm Mərkəzi və ya “Teymurilər İntibahının Florensi-yası” hesab edilir. “Vəqfiyyə”də bu kompleksin – İntibahın memarlıq siması tərkibi belə təsvir olunur:

*Mədrəsə* – burada dövrün ən istedadlı alimləri dərs deyirdi. Nəvai hər bir tələbənin yeməyi, geyimi və təqaüdü üçün xüsusi vəsait ayırmışdı.

*Şəfaiyyə (Xəstəxana)* – Pulsuz tibbi xidmət göstərən bu müəssisədə məşhur həkimlər çalışırdı. “Vəqfiyyə”yə görə, bura hər gün müəyyən miqdarda dərman və qida ilə təmin edilirdi.

*Xalasiyyə (Xanəgah)* – Sufilər və kimsəsizlər üçün sığınacaq yeri idi.

*Kitab və kitabxanaların* – o dövrdə formalaşmasına nəzər salsaq, bəli, Nəvai Teymurilər dövründə kitab mədəniyyətinin ən böyük hamisi idi. O, dövrün ən böyük rəssamı Kəmaləddin Behzadı və xəttat Sultan Əli Məşhədini öz himayəsinə götürərək şəxsi kitabxanasında işlətmişdir. Nəvai topladığı nadir nüsxələri yalnız özü üçün saxlamırdı. “Vəqfiyyə”də qeyd olunduğu kimi, “İxlasiyyə” mədrəsəsinin kitabxanası tələbələr və alimlər üçün açıq idi. Bu, Şərqdə kütləvi kitabxana sisteminin ilk nümunələrindən sayılır. Nəvai öz kitabxanasına rəhbərlik edən şəxsi (kitabdar) çox yüksək maaşla təmin edirdi ki, o, yalnız kitabların qorunması və çoxaldılması ilə məşğul olsun. Bu, Teymurilər İntibahında elm işçisinə verilən dəyərin göstəricisidir.

“Vəqfiyyə” sənədində Nəvai bu müəssisələrin yaşaması üçün çox sayda kənd, bağ, hamam və dükanları vəqf etdiyini yazır. O, sənəddə qeyd edir ki: Vəqf rəhbəri (mütəvəlli) dürüst olmalıdır. Əgər mülklərdən gələn gəlir artarsa, bu vəsait ilk növbədə tələbələrin yeməyinin keyfiyyətinin artırılmasına və binaların təmirinə xərclənməlidir.

2016-cı ildə Heratda ustad Əlişir Nəvainin məzarını ziyarət edərkən (fotonu göstərərək və ya ona istinad edərək), illərdir üzərində çalışdığım 580 səhifəlik 'Əlişir Nəvainin əsri və nəsri' kitabımın hər səhifəsinin sanki o mərmər daşda canlandığını hiss etdim. “Vəqfiyyə”də bəhs olunan o nəhəng xeyriyyəçilik ruhu, bu gün Heratın hər kərpicində və Nəvai türbəsinin sükutunda hələ də yaşayır. Bu ziyarət mənim üçün sadəcə bir səfər deyil, Teymurilər İntibahının mənəvi enerjisini duymaq və Nəvai dühası qarşısında bir alim ehtiramı idi.

“Vəqfiyyə”yə sadəcə bir sənəd kimi deyil, bir nəsr incisi kimi baxdıqda aşağıdakı *elmi yenilik* istiqamətlərini ön plana çıxarmaq olar:

- *“Sənədli nəsr”in poetika ilə sintezi (janr yeniliyi)* – “Vəqfiyyə”ni klassik hüquqi mətnlərdən ayıran ən mühüm xüsusiyyət, Nəvainin burada müsəccə nəsr (qafiyəli nəsr) işlətməsidir. Yenilik kimi vurğulamaq olar ki, Nəvai quru hüquqi dili “məqamə” janrının bədiiliyi ilə birləşdirərək, rəsmi bir dövlət sənədini yüksək ədəbiyyat səviyyəsinə qaldırmışdır. Bu, “bədii sənədli nəsr”in Şərqdəki ilk mükəmməl nümunələrindən biri hesab oluna bilər.

-*Avtobioqrafik nəsr elementləri* – “Vəqfiyyə”nin giriş hissəsi Nəvainin daxili dünyasını, onun saray həyatından yorğunluğunu və xeyriyyəçiliyə sığınma ehtiyacını əks etdirən psixoloji bir etirafdır. Yeni bir yanaşma kimi, bu əsəri Nəvainin “Münşaat”ı ilə “Xəmsə”si arasında bir körpü, müəllifin öz həyatını rəsmən sənədləşdirdiyi “avtobioqrafik nəsr” nümunəsi kimi təhlil etmək olar.

-*Terminoloji yenilik* – “Vəqf dilinin türkcələşməsi” – O dövrə qədər vəqf sənədləri əsasən ərəb və ya fars dillərində, ağır şəriət terminləri ilə yazılırdı. Nəvainin “Vəqfiyyə”ni türk dilində (cığatayca) qələmə alması və bu dildə inzibati-iqtisadi terminologiya yaratması elmi yenilik kimi çox güclü bir arqumentdir. Bu, “Mühakimətul-lüğəteyn”dəki nəzəriyyənin praktikada (iqtisadiyyatda) tətbiqidir.

- *“İdeal şəhər” konsepsiyasının nəsrdəki inşası* – Fərabinin “Fazil adamların şəhəri” ideyasının Nəvai tərəfindən “Vəqfiyyə”də real coğrafi və memarlıq detalları ilə (mədrəsə, xəstəxana, kitabxana təsvirləri ilə) təsvir edilməsi. Burada “təsviri nəsr” xüsusiyyətləri ön plandadır; Nəvai sözlərlə sanki İntibah dövrünün memarlıq xəritəsini çəkir.

-*Nəsr və insan faktoruna fokus* – əsərdəki vəqf işçilərinin (kitabdar, mütəvəlli, aşpaz) vəzifə öhdəliklərinin təsviri zamanı işlədilən dil, Nəvainin humanist etikasını göstərir. Burada quru əmr dili yox, nəsihətamiz, mənəviyyata əsaslanan bir üslub hakimdir.

TAMADDUN NURI

*-Vahid sosial-mədəni mühit ("Ekosistem") yaradıcılığı* – Nəvainin fəaliyyəti sadəcə bina tikmək deyil, bir-birini tamamlayan vahid sosial-mədəni mühit yaratmaq idi. Məsələn, kanalın (su) yanında bulaq, bulağın yanında mədrəsə və xəstəxana tikdirməsi İntibah dövrünün urbanizasiya (şəhərsalma) fəlsəfəsinin zirvəsidir.

*-İqtisadi dayanıqlıq modeli (yəni, özünü maliyyələşdirmə)* – "Vəqfiyyə"dəki tələbə təqaüdləri və işçi maaşları sistemi göstərir ki, Nəvai elmi və yaradıcılığı maddi qayğılardan azad etmək istəyirdi. Bu, müasir dövrün "elm fondu" modelinin XV əsr variantıdır.

*-Nəsr dilində "Memarlıq"* – bütün bu xeyriyyə işlərinin "Vəqfiyyə"dəki təsviri zamanı Nəvai elə bir terminologiya işlədir ki, oxucu binanın memarlıq quruluşunu sanki vizual olaraq görür. Bu, təsviri nəsrin ən güclü tərəfidir.

*-İctimai rifah manifesti (cəmiyyətin bütün təbəqələrinin (xüsusilə ehtiyacı olanların) yaxşı yaşaması, təhsil alması və sağlamlığı üçün atılan addımların rəsmi və ya mənə-vi bəyannaməsidir)* – Körpülərdən karvansaraylara qədər hər bir tikili Nəvainin *"xalqa xidmət – haqqa xidmətdir"* fəlsəfəsinin nəsrdəki və həyatdakı təzahürüdür.

*"Kağızdan daşa köçən nəsr"* – Nəvainin "Vəqfiyyə"dəki təsvirləri ilə 2016 və 2021-ci illərdəki real müşahidələrim sanki XV əsrə səyahətim demək idi. Bəlkə də insanlar arasında gözüm sövq-təbii Nəvaini, Camini arayırdı. Əlişir Nəvainin doğulub-böyüdüyü, yazıb-yaratdığı şəhərləri gəzərkən qazandığım təcrübə məqaləmə sadəcə elmi deyil, həm də canlı bir tarixi şahidlik qazandırır. Bir alimin tədqiq etdiyi obyektləri (Herat, Kabul, Məzari-Şərif) yerində görməsi, Nəvainin inşa etdirdiyi divarlara toxunması və o coğrafiyanın ruhunu hiss etməsi müəllif xoşbəxtliyimdir. Məzari-Şərifdəki o möhtəşəm Göy Məscid (Cami) və Heratdakı abidələr Nəvainin "Vəqfiyyə"də yazdığı hər bir cümlənin daşlaşmış formasıdır. Azizullah Aralın "Əfqanıstanda nəvaişünaslıq" kitabını tərcümə edərkən eyni hisslərə yenidən doldum. Nəvainin təkcə keçmişin deyil, həm də o bölgənin bugünkü mədəni kimliyinin əsası olduğunun fərqinə vardım

*Məzari-Şərif Camisi nümunəsində "Vəqf Ruhu"* – bu möhtəşəm tikilinin Nəvainin xeyriyyəçilik miqyasını necə nümayiş etdirdiyini "Vəqfiyyə"dəki "ümumi rifah" prinsipi ilə əlaqələndirmək olar. Baxmayaraq ki, "Vəqfiyyə"ni bir neçə il əvvəl yazılmışdı. "Vəqfiyyə" 1481-1482-ci illərdə qələmə alınıb, Məzari-Şərifdəki Həzrət Əli məzarının tapılması və abadlaşdırılması isə bir neçə il sonrakı hadisədir (təxminən 1484-1485).

*Heratın memarlıq ruhu* – "Vəqfiyyə"də təsvir olunan İxlasiyyə və Xalasiyyə kimi komplekslərin bu gün yalnız qalıqları və ya bəzi hissələri qalsa da, Herat səfərlərimdə müşahidə etdiyimiz o "Teymuri ruhu" (kaşı işləmələri, kərpic hörgüsü) Nəvainin nəsrdəki detallı təsvirlərinin fiziki təsdiqidir. Nəvai "Vəqfiyyə"də özünün Heratdakı komplekslərini (İxlasiyyə, Xalasiyyə və s.) sənədləşdirərkən əslində bir xeyriyyəçilik modeli yaratmışdı.

*İctimai funksiya* (*bir binanın sadəcə fiziki bir obyekt (daş, divar) olması deyil, onun cəmiyyətə hansı faydanı verməsi və hansı sosial ehtiyacı qarşılaması nəzərdə tutulur*) – Nəvai "Vəqfiyyə"də binaların yalnız divarlarından deyil, içindəki həyatdan (tələbələrin səsindən, xəstələrin şəfa tapmasından) bəhs edirdi. Əfqanıstandakı konfranslarda və ziyarətlər zamanı gördüklərimiz "Nəvai sevgisi", əslində o dövrdə qoyulan mənəvi vəqfin bu gün də insanların qəlbində davam etməsidir.

*Elmi Yenilik kimi* – "Vəqfiyyə" sadəcə arxivdə qalan bir sənəd deyil, Əfqanıstanın və bütün Türk dünyasının memarlıq və sosial simasını formalaşdıran yaşayan bir layihədir. Azizullah Araldan tərcümə etdiyimiz "Əfqanıstanda nəvaişünaslıq" kitabı da bu qədim irslə müasir elm arasında qurulan ən möhkəm körpüdür.

*Herat hüdudlarından kənara çıxış* – "Vəqfiyyə"də qeyd olunanlardan sonra Nəvai təkcə paytaxtda deyil, Xorasanın və bölgənin müxtəlif nöqtələrində, o cümlədən Məzari-Şərifdə, Məşhəddə və digər şəhərlərdə nəhəng layihələr həyata keçirmişdir.

*Məşhəd Kanalı və İmam Rza Külliyəsi* – Nəvainin xeyriyyəçilik fəaliyyəti "Vəqfiy-yə"də qeyd olunanlarla bitmir. Onun "sayı-hesabı olmayan" işləri arasında Məşhəd şəhərinin ekologiyasını və həyatını dəyişən ilk su kanalının (arxının) çəkilməsi xüsusi yer tutur. Quraq bölgəyə həyat gətirən bu layihə Nəvainin mühəndislik dühasının sübutudur. Eyni zamanda, İmam Rza külliyəsinin tarixi və memarlıq incisi olan *"günəşə çıxan balkonunun" (eyvanının)* Nəvai tərəfindən bərpa edilməsi – Nəvainin bu eyvanı (balkonu) –

TAMADDUN NURI

*"Eyvani-Səhn" (və ya "Nəvai eyvanı")* – təmir etdirməsi və bəzədilməsinə rəhbərlik etməsi, onun memarlıq estetikasına olan həssaslığını göstərir. Bu eyvan həm mühəndislik, həm də astronomik *(günəşin düşmə bucağı)* baxımdan dövrün şah əsərlərindən biridir. İmam Rza külliyəsinə və şəhər əhalisinə su çatdırılması üçün Nəvainin "Güləsbi" (və ya bəzi mənbələrdə Çeşməyi-Güləsbi) bulağından çəkdirdiyi bu kanal, Teymurilər İntibahının ən mühüm texnoloji uğurlarından biridir. Məşhəd kanalında olduğu kimi, bütöv bir şəhərin su təminatını (ekologiyasını) dəyişmişdir. Bu, "sayı-hesabı olmayan" xeyir işlərin içində ən fundamental olanıdır, çünki su olan yerdə həyat və elm çiçəklənir.

*Sayı-hesabı olmayan tikililər* – Tarixi mənbələr (Xandəmir və b.) Nəvainin 370-dən çox bina tikdirdiyini qeyd edir. Buraya daxil olan yüzlərlə su anbarı, körpü (məsələn, Heratdakı məşhur körpülər) və karvansaralar Nəvainin xeyriyyəçiliyini "dövlət içində bir dövlət" miqyasına qaldırmışdı.

Tədqiqatlardan məlum olur ki, "Vəqfiyyə"dəki nəzəri prinsiplər sonrakı illərdə daha da təkmilləşmiş, Nəvai hər yeni tikilidə (Məzari-Şərifdə olduğu kimi) həm də yerli xalqın iqtisadi rifahını təmin edən bir sistem qurmuşdur.

***

Əlişir Nəvainin çoxşaxəli ədəbi-elmi irsi türk-islam mədəniyyətinin ən möhtə-şəm səhifələrindən birini təşkil edir. Onun poetik, elmi, dini-fəlsəfi və tarixi məzmunlu əsərləri yalnız öz dövrü üçün deyil, sonrakı əsrlər üçün də böyük əhəmiyyət kəsb etmişdir. Bu zəngin irs içərisində "Vəqfiyyə" əsəri xüsusi yer tutur. Həmin əsər Nəvainin yalnız şair və mütəfəkkir deyil, həm də ictimai xadim, xeyriyyəçi və yüksək mənəvi məsuliyyət daşıyan şəxsiyyət olduğunu göstərən mühüm tarixi sənəddir.

"Vəqfiyyə" bir tərəfdən müəllifin vəqf etdiyi mülkləri, tikdirdiyi binaları, sosial təyinatlı obyektləri və onların idarə olunma prinsiplərini əks etdirir, digər tərəfdən isə onun həyata, insana, cəmiyyətə və xeyirxahlıq anlayışına münasibətini ortaya qoyur. Bu baxımdan əsər yalnız təsərrüfat və ya hüquqi xarakterli sənəd deyil; o, həm də müəllifin mənəvi dünyasını, ictimai baxışlarını və humanist idealını ifadə edən qiymətli mənbədir.

Bu məqalədə "Vəqfiyyə" əsərinin elmi, tarixi və mənəvi mahiyyəti araşdırılır, onun Nəvai irsi içərisində yeri müəyyənləşdirilir və əsərin həm dövrün ictimai-mədəni mənzərəsini əks etdirən sənəd, həm də humanist ideyaların daşıyıcısı kimi əhəmiyyəti dəyərləndirilir.

"Vəqfiyyə" *janr və məzmun xüsusiyyətləri* etibarilə vəqf sənədi xüsusiyyətləri daşısa da, məzmun baxımından sırf hüquqi sənəd çərçivəsini aşır. Burada sadəcə mal-mülkün siyahısı verilmir, həmin mülklərin hansı məqsədlərə xidmət etdiyi, ictimai əhəmiyyəti, insanların rifahı üçün hansı funksiyanı yerinə yetirdiyi də göstərilir. Bu isə əsərin həm rəsmi sənəd, həm də sosial-mənəvi proqram xarakteri daşıdığını söyləməyə əsas verir.

Nəvai əsərdə vəqf anlayışına dar məna vermir. O, vəqfi sosial məsuliyyət, savab, insanlara fayda vermək, ictimai yük daşımaq kimi daha geniş mənəvi müstəvidə dərk edir. Klassik Şərq düşüncəsində xeyriyyəçilik yalnız maddi yardım deyil, həm də insanın öz varlığını cəmiyyətə həsr etməsinin bir forması sayılırdı. "Vəqfiyyə"də bu prinsip aydın şəkildə hiss olunur. Müəllif sərvətin həqiqi dəyərini onun yığılmasında deyil, faydaya çevrilməsində görür.

Bu baxımdan əsər, bir növ, müəllifin öz vicdanı qarşısında hesabatıdır. Burada maddi sərvətin sadalanması ilə yanaşı, onun mənəvi təyinatı da göstərilir. Məhz buna görə "Vəqfiyyə" sırf rəsmi sənəd olmaqdan çıxaraq yüksək ictimai-əxlaqi məzmun qazanır.

"Vəqfiyyə"ni dəyərli edən əsas cəhətlərdən biri də onun *müəllif şəxsiyyətini və ictimai mövqeyini* canlı və çoxşaxəli şəkildə əks etdirməsidir. Nəvai bu əsərdə təkcə varlı və nüfuzlu bir dövlət adamı kimi görünmür. O, burada cəmiyyət qarşısında məsuliyyət hiss edən, insanlara fayda verməyi həyat prinsipi hesab edən, öz sərvətini mənəvi amal naminə xərcləyən böyük şəxsiyyət kimi təqdim olunur.

Tarixi mənbələrdən məlumdur ki, Əlişir Nəvai çox geniş maddi imkanlara malik olmuşdur. Lakin onun böyüklüyü yalnız bu imkanlarda deyil, həmin imkanlardan istifadə məqsədində idi. O, sərvəti şəxsi dəbdəbə üçün deyil, məktəblərin, mədrəsələrin, məscidlərin, karvansarayların, körpülərin, yol və digər ictimai obyektlərin tikintisi və saxlanılması üçün sərf etmişdir. Bu isə onun dünyagörüşündə maddi güclə mənəvi məsuliyyətin vəhdətdə olduğunu göstərir.

"Vəqfiyyə" əsərindən aydın olur ki, Nəvai ictimai faydanı həyatın ən ali prinsiplərindən biri saymışdır. O, yaxşı bilirdi ki, sərvət keçicidir, lakin

xalq üçün görülən işlər, elm və mənəviyyat naminə yaradılan imkanlar qalıcıdır. Bu düşüncə onun fəaliyyətinin ana xəttini təşkil edir. Nəvainin xeyriyyəçilik fəaliyyəti sadəcə şəfqət və ya səxavət jesti deyildi; bu, onun həyat fəlsəfəsinin ayrılmaz hissəsi idi.

*Vəqfiyyə"*nin elmi əhəmiyyəti onun *tarixi mənbə kimi* böyük dəyərə malik olması ilə də bağlıdır. Əsər Nəvai dövrünün sosial-iqtisadi münasibətlərini, ictimai quruluşunu, xeyriyyəçilik ənənələrini, dini müəssisələrin fəaliyyət prinsiplərini, mülkiyyət və idarəetmə formalarını öyrənmək baxımından mühüm material verir.

Buradakı məlumatlar vasitəsilə həmin dövrdə vəqf institutunun hansı funksiyalar daşıdığını anlamaq olur. Vəqf yalnız dini məqsədlər üçün yaradılan mexanizm deyildi; o, eyni zamanda təhsil, sosial yardım, yol infrastrukturu, qonaqpərvərlik, mədəni fəaliyyət və ictimai rifah məsələlərinin həllinə xidmət edirdi. Bu mənada "Vəqfiyyə" klassik Şərq cəmiyyətində vəqfin çoxfunksiyalı ictimai institut olduğunu nümayiş etdirir.

Əsərdən dövrün şəhər mədəniyyəti, ictimai xidmət formaları və iqtisadi dövriyyəsi haqqında da nəticələr çıxarmaq mümkündür. Burada adı çəkilən tikililər, təsərrüfat vahidləri, xidmət sahələri və gəlir mənbələri həmin dövrün yaşam modelini əks etdirir. Ona görə də "Vəqfiyyə" yalnız ədəbiyyat tarixçiləri üçün deyil, tarixçilər, iqtisad tarixçiləri, mədəniyyət araşdırmaçıları və mətnşünaslar üçün də dəyərli mənbədir.

Bununla yanaşı, əsər müəllifin bioqrafiyasının müəyyən məqamlarını da aydınlaşdırmağa kömək edir. Nəvainin həyatının hansı mərhələlərində hansı ictimai təşəbbüslərlə çıxış etməsi, hansı sahələrə daha çox diqqət yetirməsi, hansı mənəvi prinsipləri əsas götürməsi bu əsərdə əksini tapır. Deməli, "Vəqfiyyə" bir tərəfdən ictimai-tarixi sənəd, digər tərəfdən bioqrafik mənbə funksiyası daşıyır.

"Vəqfiyyə"nin mühüm tərəflərindən biri onun dərin *mənəvi-fəlsəfi məzmun və humanist ideyalar* daşımasıdır. Əsərdə xeyriyyəçilik yalnız sosial mexanizm kimi deyil, insanın mənəvi kamilliyə çatmasının yollarından biri kimi görünür. Nəvai üçün insana xidmət sadəcə ictimai borc deyil, həm də ilahi dəyərlərə bağlılığın təzahürüdür. Bu yanaşma klassik islam düşüncəsində geniş yayılmış "yaxşı əməl", "savab", "insana fayda vermək", "ədalət və mərhəmət" kimi anlayışlarla uyğunluq təşkil edir. Lakin Nəvai bu prinsipləri nəzəri şəkildə deyil, əməli fəaliyyətlə gerçəkləşdirir. Onun "Vəqfiyyə"si məhz bu əməli humanizmin sənədi kimi qiymətlidir.

Əsərdə hiss olunur ki, müəllif insanın bu dünyadakı mövcudluğunu yalnız fərdi maraqlar çərçivəsində dərk etmir. O, insanı cəmiyyətə bağlı, başqalarının rifahı üçün məsuliyyət daşıyan varlıq kimi görür. Bu, əsərin mənəvi nüvəsini təşkil edir. Burada sərvət, nüfuz və hakimiyyət ali məqsəd deyil; bunlar daha uca mənəvi amalın həyata keçirilməsi üçün vasitədir.

Nəvainin bu mövqeyi onun digər əsərləri ilə də səsləşir. Onun poetik və elmi irsində tez-tez rast gəlinən ədalət, mərhəmət, elmə xidmət, insanın mənəvi yüksəlişi, xeyirxahlıq kimi anlayışlar "Vəqfiyyə"də konkret sosial proqram şəklində ortaya çıxır. Bu mənada "Vəqfiyyə" Nəvai dünyagörüşünün praktik ifadəsi hesab edilə bilər.

Məhz buna görə bu əsərin mənəvi əhəmiyyəti bu gün üçün də aktualdır. Müasir cəmiyyətdə sosial məsuliyyət, xeyriyyəçilik, ictimai borc, mənəvi hesabat kimi anlayışların dəyəri yenidən düşünülür. "Vəqfiyyə" isə göstərir ki, böyük şəxsiyyət üçün maddi imkanların həqiqi dəyəri yalnız insanlara fayda verməkdədir.

"Vəqfiyyə" əsəri təkcə tarixi və mənəvi mənbə kimi deyil, həm də *filoloji – ədəbiyyat və mətnşünaslıq* baxımdan diqqətəlayiqdir**.** Əsərdə istifadə olunan dil, ifadə tərzi, terminologiya, mətnin quruluşu və üslub xüsusiyyətləri klassik türk yazı mədəniyyətinin mühüm nümunələrindən biri kimi dəyərləndirilə bilər. Bu mətn vasitəsilə dövrün rəsmi-yazılı üslubu, ictimai-hüquqi terminləri, dini və mənəvi anlayışların dil müstəvisində ifadəsi araşdırıla bilər. Həmçinin əsər, klassik mətnlərdə müəllif mövqeyinin necə formalaşdığını, sənəd xarakterli mətnin ideya-bədii çalarlarla necə zənginləşdiyini göstərir. *Mətnşünaslıq* baxımından "Vəqfiyyə"nin əlyazma nüsxələrinin müqayisəli öyrənilməsi, terminoloji xüsusiyyətlərinin araşdırılması, dövrün digər vəqf sənədləri ilə tutuşdurulması böyük elmi nəticələr verə bilər. Belə tədqiqatlar həm Nəvai irsinin daha dərindən öyrənilməsinə, həm də klassik türk yazı dili tarixinin yeni cəhətlərinin aydınlaşdırılmasına xidmət edər. *Ədəbiyyatşünaslıq* baxımından isə "Vəqfiyyə" müəllifin yaradıcılığının bütöv mənzərəsini tamamlamaq üçün vacibdir. Çünki Nəvaini yalnız lirik və epik əsərləri ilə dərk etmək yetərli deyil. Onun ictimai, elmi, dini və mənəvi baxışları da

TAMADDUN NURI

ümumi yaradıcılıq sisteminin mühüm hissəsidir. “Vəqfiyyə” bu sistemdə poetik ideyaların ictimai praktikaya çevrildiyi məqamı göstərir.

*“Vəqfiyyə”yə müasir dövrdən baxdıqda onun aktuallığı* daha aydın görünür. Əsərdə ifadə olunan dəyərlər – sosial məsuliyyət, ictimai fayda, elmə və maarifə dəstək, mənəvi hesabat, xeyirxahlıq və insanpərvərlik – bu gün də bəşəri əhəmiyyətini saxlayır. Qlobal və mürəkkəb sosial proseslər fonunda klassik mədəni irsdəki bu cür nümunələr təkcə tarixi yaddaş deyil, həm də mənəvi istiqamətverici rol oynayır.

Nəvainin vəqfçilik modeli müasir sosial layihə düşüncəsi ilə də səsləşir. O, xeyriyyəçilikdə davamlılıq, məqsədyönlülük və ictimai faydalılıq prinsiplərini önə çəkirdi. Bu mənada onun yanaşması yalnız dini-mənəvi təcrübə deyil, həm də sosial idarəetmə mədəniyyətinin göstəricisidir.

Bu əsərin yenidən nəşri, müasir əlifbaya çevrilməsi, elmi-tənqidi mətninin hazırlanması, müxtəlif dillərə tərcüməsi və geniş oxucu auditoriyasına təqdim olunması olduqca vacibdir. Çünki “Vəqfiyyə” yalnız keçmişin yadigarı deyil, həm də bugünkü insan üçün örnək olan mənəvi sənəddir.

Əlişir Nəvainin “Vəqfiyyə” kitabı 1926-cı il 26 fevral – 6 mart tarixlərində keçirilən *I Bakı Türkoloji qurultayı* günlərində kitab halında nəşr olunmuş və Qurultay iştirakçılarına hədiyyə edilmişdir. Elə həmin günlərdə əsərdən müəyyən hissələr dövrü mətbuat səhifələrində də dərc olunmuşdu: “Kommunist”, “Ədəbiyyat qəzeti” və “Revolyusiya və kultura” jurnalında. “Münşəat” və “Vəqfiyyə” adlı əsərlərinin XX əsrdə ilk nəşri Bakıda baş tutmuşdu.

AMEA-nın Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutunda elmin müxtəlif sahələrinə aid külli miqdarda Azərbaycan, türk, fars və ərəb dillərində nadir əlyazma nüsxələri saxlanılır. Bunlar dünya ədəbiyyatı klassiklərinin əsərlərinin orta əsr rəssamları, xəttatları tərəfindən müəyyənləşdirilmiş, ornamentli nəfis əlyazma nüsxələridir. Əlyazmalar İnstitutunda saxlanılan vəqf olunmuş əlyazmalardan başqa “Vəqfiyyə” və yaxud “Vəqfnamə” adı ilə yazılmış əsərlər vardır ki, bunlar da çox maraqlıdır. Bu əlyazmalar içərisində Əlişir Nəvainin“Vəqfiyyə” əsərinin 4 (dörd) əlyazma nüsxəsi vardır.

**1.** “Vəqfiyyə”nin 1-ci əlyazma nüsxəsi

Tarixi: *h.1052 = m. 1642;* Yazıldığı yer: *Mərv;* Katibi: Dövlətşah ibn – *Hüseyn Serəxsi;* Xətti: *təliq;* Əlyazması *zər basmalı tünd yaşıl meşin cildə* tutulub; Başlanır: *vərəq –229 b;* Bitir: *vərəq –241 b.* Ölçüsü: *22x35 sm;* Həcmi: *13 vərəq;* Şifri: *D-344 / 2377 –II.*

**2.** “Vəqfiyyə”nin 2-ci əlyazma nüsxəsi

Tarixi: *1055 – 1645;* Yazıldığı yer: *Mərv (Şahcahan);* Katibi: Dövlətşah ibn *Hüseyn Serəxsi;* Xətti: *nəstəliq;* Qəhvəyi *meşin cildə tutulmuş* bu əlyazması Füzulinin “Divan”ı ilə bir yerdədir. Əlyazmasının *mətni qara, sərlövhələri isə qırmızı mürəkkəblə* yazılmışdır; Başlanır: *vərəq 245 b;* Bitir: *vərəq 258 a;* Ölçüsü: *21 x 34 sm;* Həcmi: *16 vərəq;* Şifri: *M-274/14181 – I.*

**3.** “Vəqfiyyə”nin 3-cü əlyazma nüsxəsi

Tarixi: *XVIII əsrdə* yazıldığı ehtimal olunur. ; Əlyazması naqisdir; Xətti: *nəstəliq;* Başlanır: *vərəq 247 b;* Bitir: *vərəq 272 b;* Ölçüsü: *13 x 19 sm;* Həcmi: *25 vərəq;* Şifri: *M-45/2794 – VI.*

**4.** “Vəqfiyyə”nin 4-cü əlyazma nüsxəsi

Tarixi: *XVIII əsrdə* yazıldığı ehtimal olunur; Xətti: *nəstəliq;* Medalyonlu *qəhvəyi meşin cildə* tutulmuşdur ; Əlyazmada Nəvainin “Cahar hədis”, “Nəzmul-cəvahir”, “Xəmsətul-mütəhəyyirin” və *“Vəqfiyyə”* əsərləri də vardır. ;Başlanır: *vərəq 101 b;* Bitir: *vərəq 194 a;* Ölçüsü: *18 x 19 sm;* Həcmi: *93 vərəq;* Şifri: *M-45/2794 – IV.*

“Vəqfiyyə” əsərini yenidən nəşr edərək yaymaq, əslində dahilərin həyat təcrübəsindən ibrət götürmək, onları gənclərə aşılamaqda fayda var, gələcəyin insanlarını yaxşılığa və yaxşılıq etməyə aparır.

**NƏTİCƏ:**

Tədqiqat göstərir ki, Əlişir Nəvainin “Vəqfiyyə” əsəri yalnız klassik vəqf sənədi kimi deyil, həm də Teymurilər dövrü İntibahının sosial-iqtisadi, mədəni və mənəvi əsaslarını əks etdirən çoxşaxəli və fundamental bir mənbədir. Əsər, müəllifin humanist dünyagörüşünü, ictimai məsuliyyət anlayışını və xeyriyyəçilik fəlsəfəsini sistemli şəkildə təqdim etməklə yanaşı, həmin dövrün ictimai quruluşu, iqtisadi münasibətləri və mədəni inkişaf səviyyəsi haqqında dolğun təsəvvür yaradır. “Vəqfiyyə”nin əsas xüsusiyyətlərindən biri onun hüquqi sənəd çərçivəsini aşaraq bədii-estetik və fəlsəfi məzmun qazanmasıdır. Nəvai burada vəqf institutunu yalnız maddi yardım mexanizmi kimi deyil, cəmiyyətin rifahına xidmət edən, davamlı inkişafı təmin edən sosial model kimi təqdim edir. Bu modeldə təhsil, səhiyyə, sosial təminat və mədəniyyət vahid bir sistem

daxilində fəaliyyət göstərir ki, bu da əsərin "sosial-iqtisadi manifest" kimi dəyərləndirilməsinə əsas verir.

Eyni zamanda, "Vəqfiyyə" Teymurilər dövründə türk dilinin elmi və inzibati sahədə tətbiqinin genişləndirilməsi baxımından mühüm rol oynamışdır. Nəvainin bu əsəri vasitəsilə formalaşdırdığı terminoloji baza və rəsmi üslub türk dilinin funksional imkanlarını genişləndirmiş, onu dövrün aparıcı elmi dilləri ilə eyni səviyyəyə yüksəltmişdir. Əsərdə əks olunan xeyriyyəçilik fəaliyyəti – mədrəsə, xəstəxana, kitabxana və digər ictimai obyektlərin yaradılması – yalnız fərdi təşəbbüs deyil, sistemli və uzunmüddətli sosial siyasət nümunəsidir. Bu baxımdan Nəvainin fəaliyyəti müasir dövrün sosial layihə və davamlı inkişaf modelləri ilə səsləşir.

Nəticə etibarilə, "Vəqfiyyə" əsəri həm tarixi sənəd, həm ədəbi-bədii nümunə, həm də ictimai-fəlsəfi proqram kimi böyük əhəmiyyət daşıyır. O, təkcə öz dövrünün deyil, həm də müasir cəmiyyətin mənəvi və sosial problemlərinin dərkində mühüm istinad mənbəyi kimi çıxış edir və Əlişir Nəvaini yalnız böyük şair deyil, həm də uzaqgörən ictimai mütəfəkkir və praktik humanizm ideoloqu kimi səciyyələndirməyə imkan verir.2016 və 2021-ci illərdə Herat və Məzari-Şərif şəhərlərinə səfərim zamanı bu abidələri canlı görməyim quru elmi faktları "canlı tarixə" çevirir.

**ƏDƏBİYYAT:**


1. Aral, Azizullah. Əfqanıstanda nəvaişünaslıq (mətnlərin təsviri və təhlili). Monoqrafiya: özbəkcədən tərcümə edən və giriş söz müəllifi, nəvaişünas Almaz Ülvi Binnətova. – Bakı, "Füyuzat", 2026, 282 səh.
2. Əlişir Nəvai Azərbaycan ədəbiyyatşünaslığında: məqalələr / tərtib edən Almaz Ülvi Binnətova. – Bakı: Nurlan, 2009, 360 səh.
3. Həbibbəyli, İsa. Əlişir Nəvai – ümumtürk ədəbiyyatında böyük zirvə // Əlişir Nəvai və Azərbaycan ədəbiyyatı Beynəlxalq elmi konfransın materialları (Bakı, 16 noyabr 2016-cı il) // redaktoru və nəşrə hazırlayan: Almaz Ülvi. – Bakı: Elm və Təhsil, 2017, 72 s.
4. Nağıyeva, Cənnət. Azərbaycanda Nəvai: monoqrafiya. – Bakı: Tural-Ə NPM, 2001, 264 s.
5. Nəvai, Əlişir. Vəqfiyyə. H. 1055 (m. 1645) əlyazması, 16 v. – Bakı: AMEA Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutunun Nadir Fondu, şifri M-274/14181.
6. Sirojiddfinov, Şuhrat. Əmir Əlişir Nəvai (monoqrafiya) / özbəkcədən tərcümə edən: Gülbahar Aşurova, redaktor və giriş söz müəllifi, nəvaişünas Almaz Ülvi Binnətova. – Bakı: Elm və Təhsil, 2023, 214 səh.
7. Şeyxzadə, Maqsud. Qəzəl mülkünün sultanı (Əlişir Nəvainin həyat və yaradıcılığı). özbəkcədən tərcümə edən və giriş söz müəllifi, nəvaişünas Almaz Ülvi Binnətova. – Bakı: Elm və Təhsil, 2025, 416 səh.
8. Ülvi, Almaz. Azərbaycan-özbək (cığatay) ədəbi əlaqələri (dövrlər, simalar, janrlar, təmayüllər). – Bakı: Qartal nəşriyyatı, 2008, 328 s.
9. Ülvi, Almaz. Əlişir Nəvainin əsri və nəsri (elmi-filoloji və dini-təsəvvüf əsərləri): monoqrafiya. – Bakı: Elm və Təhsil, 2023, 582 s.


TAMADDUN NURI